AZƏRBAYCAN
RESPUBLİKASI
VERGİLƏR
NAZİRLİYİ

# Mədən Vergisi

#03

Dövlət naminə

www.taxes.gov.az

**Azərbaycan Respublikasının ərazisində (Xəzər dənizinin (gölünün) Azərbaycan Respublikasına mənsub olan bölməsi də daxil olmaqla) yerin təkindən faydalı qazıntıları çıxarırsınızsa, Siz mədən vergisinin ödəyicisisiniz və bilməlisiniz ki...**



Hər ay hesabat ayından sonrakı ayın **20-dən gec olmayaraq** "Mədən vergisinin bəyannaməsi" vergi orqanına təqdim edilməli və mədən vergisi **(yerli əhəmiyyətli tikinti materialları üzrə mədən vergisi istisna olmaqla)** dövlət büdcəsinə ödənilməli;



Hər ay hesabat ayından sonrakı ayın **20-dən gec olmayaraq** yerli əhəmiyyətli tikinti materialları üzrə **(kərpic-kirəmit gilləri, tikinti qumları, çınqıl xammalı)** vergi bəyannaməsi bələdiyyələrə təqdim edilməli və mədən vergisi bələdiyyə büdcəsinə ödənilməlidir.

# Vergi dərəcələri barədə

**Yerin təkindən çıxarılan faydalı qazıntılara aşağıdakı dərəcələr tətbiq olunur:**

**Xam neft, təbii qaz və filiz faydalı qazıntıları**nın topdansatış qiymətinə tətbiq edilməklə aşağıdakı faizlərlə:

| | |
|---|---|
| Xam neft | 26 |
| Təbii qaz | 20 |
| Filiz faydalı qazıntılar - bütün növ metallar | 3 |

- Vergi ödəyicisinin çıxardığı faydalı qazıntılar üçün müəyyən etdiyi (əlavə dəyər vergisiz) faktiki buraxılış (satış) qiyməti (bazar qiymətlərindən aşağı olmayan), bu qiymətlər dövlət tərəfindən müəyyən edildikdə isə tənzimlənən qiymətlər topdansatış qiyməti hesab olunur.

- Xam neftin və qazın hasilatı zamanı mədən vergisi hesablanarkən, hasil edilmiş neftin və qazın miqdarından texnoloji proseslə əlaqədar quyuya geri vurulan neftin və qazın miqdarı Azərbaycan Respublikası Nazirlər Kabineti tərəfindən müəyyən olunmuş normativlər əsasında çıxılır. Hasil edilmiş neftin və qazın texnoloji proseslə əlaqədar quyuya geri vurulma normativlərinin təsdiq edilməsi haqqında Azərbaycan Respublikası Nazirlər Kabinetinin qərarı ilə http://www.e-qanun.az/framework/4581 internet ünvanı üzrə tanış ola bilərsiniz.

Qeyri-filiz faydalı qazıntıların növündən asılı olaraq hər kubmetr üçün aşağıdakı dərəcələrlə (manatla):

| | |
|---|---|
| Seolit | 1,0 |
| Barit | 1,0 |
| Mişar daşları | 2,0 |
| Çınqıl xammalı | 1,0 |
| Yüngül doldurucular (keramzit, aqloporit) istehsalı üçün gillər | 1,0 |
| Bentonit gilləri | 1,0 |
| Kərpic-kirəmit gilləri | 1,0 |
| Vulkan külü və pemza | 1,0 |
| Kvars qumları | 1,0 |
| Tikinti qumları | 1,0 |
| Sement xammalı (əhəng daşı, mergel, gil, vulkan külü) | 1,0 |
| Üzlük daşları (mərmər, qabbro, tuflar, travertin, mərmərləşmiş əhəng daşı) | 1,0 |
| Qiymətli və yarımqiymətli bəzək daşları | 6,0 |
| Duz | 6,0 |
| Yodlu bromlu sular | 0,04 |
| Mineral sular | 10,0 |

# Unutmayın ki...

Mədən vergisi gəlirdən məhdudlaşdırılmayan çıxılmalara aid edilir.

# Maliyyə sanksiyaları, faizlər və digər məsuliyyət tədbirləri barədə

Vergi qanunvericiliyinin pozulması hallarına görə tətbiq olunan maliyyə sanksiyaları və digər məsuliyyət tədbirləri barədə məlumatı "Maliyyə sanksiyaları, faizlər və digər məsuliyyət tədbirləri barədə Yaddaş" adlı bukletdən əldə edə bilərsiniz.



AZ1073, Azərbaycan, Bakı,
Landau küçəsi, 16
**Tel.:** +994 12 403 89 70
**Faks:** +994 12 403 89 71
**E-poçt:** office@taxes.gov.az
**www.taxes.gov.az**